**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

# Q Ə R A R

**№ 55-2**

**Bakı şəhəri** **19 dekabr 2019-cu il**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə dövlət Komitəsinin 2020-ci ilin ilk altı ayı üçün nəzərdə tutulmuş İş Planının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə dövlət Komitəsi sədrinin 25 sentyabr 2006-cı il tarixli 21 saylı Əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikasının "Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin Aparatının Fəaliyyətinin Təşkili haqqında" Əsasnaməyə müvafiq olaraq Komitənin 2020-ci ilin ilk altı ayı üçün nəzərdə tutulmuş İş Planının layihəsi hazırlanmışdır.

İş Planında ümumi məsələlər, ailə, qadın və uşaq problemləri, beynəlxalq əlaqələr, hüquqi təminat, informasiya təminatı ilə əlaqədar tədbirlər nəzərdə tutulmuşdur. Planlaşdırılmış tədbirlərin icraçıları qismində Komitənin struktur bölmələri, tədbirlərə cəlb olunması nəzərdə tutulmuş müvafiq dövlət orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar göstərilmişdir.

İş Planının 2020-ci ildə icrasının təmin edilməsi məqsədi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A A L I R:**

1. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2020-ci ilin ilk altı ayı üçün nəzərdə tutulmuş İş Planı təsdiq edilsin.

2. Şöbələrin İş Planına daxil olan tədbirlərin icrası müvafiq şöbələrin rəhbərləri tərəfindən təmin edilsin və bu barədə hər ay Komitənin sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya və Aparatın rəhbəri Ceyran Rəhmətullayevaya məlumat verilsin.

3. İş planında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarət öz səlahiyyətləri daxilində Komitənin sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya və Aparatın rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Hicran Hüseynova**